**“Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası ilə bağlı 2017-ci il ərzində Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən görülən işlər haqqında məlumat**

| № | Tədbirin adı | Qiymətləndirmə indikatorları | İcra / Tövsiyə | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|---|
| **4.1. Vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin dəstəklənməsi** | | | | |
| 4.1.1. | Açıq hökumət prinsiplərinin təşviqi və korrupsiyanın qarşısının alınması istiqamətlərində qeyri-hökumət təşkilatlarının layihə və təşəbbüslərinə dəstəyin prioritet istiqamət kimi müəyyən edilməsi | Prioritetin müəyyən edilmə forması və dəstəklənən layihələrin sayı | Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası | 2016-2018 |
| 2017-ci ildə Şura tərəfindən 2 qrant müsabiqəsi elan edilmiş və bu qrant müsabiqələri çərçivəsində “Açıq hökumətin təşviqi və korrupsiyanın qarşısının alınmasına dair məsələlər” və “İctimai nəzarət və şəffaflıq məsələlərinə dair təşəbbüslər” istiqamətləri üzrə qeyri-hökumət təşkilatları tərəfindən layihə təklifləri qəbul edilmişdir. Müsabiqə nəticələri ilə bağlı Şuranın qərarlarına əsasən qeyd olunan istiqamətlər üzrə 29 qeyri-hökumət təşkilatı qalib elan olunmuşdur. Qalib elan olunmuş 29 qeyri-hökumət təşkilatının layihələrinin icrası üçün Şura tərəfindən 182 900 (yüz səksən iki min doqquz yüz) manat vəsait ayrılmışdır. Layihələrin icrasına 124 nəfər cəlb olunmuşdur. Bakı, Gəncə, Lənkəran və Şirvan şəhərlərində, Şamaxı, İsmayıllı, Qəbələ, Ağsu, Quba, Qusar, Xaçmaz, Tərtər, Ağcabədi, İmişli, Sabirabad, Salyan, Hacıqabul, Göyçay, Saatlı, Ucar, Zərdab və Masallı rayonlarında ümumilikdə 5-i təlim olmaqla 88 tədbir keçirilmişdir. 2017-ci ildə bu istiqamətlərdə icra olunan layihələr çərçivəsində 4 adda kitab, 3 adda buklet, plakatlar və digər nəşr məhsulları, 1 sayt (www.qhttv.az), 2 televiziya verilişi hazırlanmış və 2 araşdırma aparılmışdır. Bu layihələrin həyata keçirilməsində 4534 nəfər birbaşa faydalanmışdır. | | | | |

| | | | | |
|---|---|---|---|---|
| 4.2.3. | İstehlakçıların hüquqlarının qorunması məqsədi ilə ictimai nəzarət mexanizmlərinin hazırlanması, bu məqsədlə yaradılmış qaynar xəttin fəaliyyətinin təkmilləşdirilməsi və bununla bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | İctimai nəzarət mexanizmlərinin tətbiqi, qaynar xətt vasitəsilə qəbul edilmiş müraciətlərin sayı və həyata keçirilmiş maarifləndirmə tədbirləri | Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası | 2016-2018 |
| 2016-ci ildə olduğu kimi, Şura tərəfindən 2017-ci ildə də “İstehlakçıların hüquqlarının qorunması və maarifləndirilməsinə dair təşəbbüslər” istiqaməti üzrə qeyri-hökumət təşkilatları tərəfindən qrant müsabiqəsi çərçivəsində layihə təklifləri qəbul edilmişdir. Müsabiqədə qalib elan olunmuş 5 qeyri-hökumət təşkilatının layihələrinin icrası üçün Şura tərəfindən 28 900 (iyirmi səkkiz min doqquz yüz) manat vəsait ayrılmışdır. Layihələrin icrasına 20 nəfər cəlb olunmuşdur. Bakı və Lənkəran şəhərlərində, Biləsuvar, Masallı, Xaçmaz, Quba və Salyan rayonlarında ümumilikdə 18 tədbir, 2 seminar, 1 fləşmob keçirilmişdir. 2017-ci ildə bu istiqamətdə icra olunan layihələr çərçivəsində 3 adda kitab, 4 adda buklet, plakatlar və digər nəşr məhsulları hazırlanmışdır. Bu layihələrin həyata keçirilməsində 1060 nəfər birbaşa faydalanmışdır.<br>Şuranın fəaliyyətində effektivliyi, şəffaflığı, hesabatlılığı və aşkarlığı daha da artırmaq və istehlakçı hüquqlarının qorunması məqsədi ilə QHT-lərin təklif və şikayətlərinin qəbulu üçün 24 aprel 2017-ci ildən etibarən Şuranın 1672 nömrəli Qaynar xətt xidməti fəaliyyətə başlamışdır. Qaynar xəttin fəalliyyətə başladığı gündən Şuraya bu xidmət vasitəsilə 6 müraciət daxil olmuşdur. Daxil olan hər bir müraciət araşdırılmış, müvafiq tədbirlər görülmüş və müraciət edən şəxslər aparılan araşdırmanın nəticələri barədə məlumatlandırılmışdır. | | | | |
| **5. Maliyyə şəffaflığının təmin edilməsi** | | | | |
| 5.6. | Büdcə təşkilatları tərəfindən dövlət satınalmaları ilə bağlı məlumatların internet səhifələrində yerləşdirilməsi | Satınalmalarla bağlı məlumatların açıqlanması | Mərkəzi və yerli icra hakimiyyəti orqanları, iqtisadiyyat Nazirliyi, aidiyyəti büdcə təşkilatları | 2016-2018 |

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının cssn.gov.az internet saytında Tenderlər bölməsi yaradılmışdır. 2017-ci ildə də Şuranın keçirdiyi açıq tender və kotirovkalar barədə elanlar və bildirişlər bu bölmədə yerləşdirilmişdir.

**11. Fəaliyyət Planının icrasının monitorinqi və nəzarətin təşkili**

| | | | | |
|---|---|---|---|---|
| 11.5. | Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası üçün vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın qurulması və onların fəaliyyətinin dəstəklənməsi | Dəstəklənmiş layihələrin sayı | Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası | 2016-2018 |

Vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın qurulması və onların fəaliyyətinin dəstəklənməsi məqsədilə Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının (bundan sonra-Platforma) fəaliyyəti Şura tərəfindən dəstəklənmiş, Avropa Şurası və Avropa İttifaqının birgə maliyyələşdirdiyi və Azərbaycan hökumətinin dəstəyi ilə həyata keçirilən "Azərbaycanda Vətəndaş Cəmiyyəti Dialoqu" layihəsində Şuranın iştirakı davam etmiş, 2017-ci ilin I və II qrant müsabiqələrində açıq hökumət prinsiplərinin təşviqi və korrupsiyanın qarşısının alınması, istehlakçıların hüquqlarının qorunması istiqamətləri üzrə qeyri-hökumət təşkilatlarının layihə təklifləri dəstəklənmişdir.

10-11 fevral 2017-ci ildə Beynəlxalq Açıq Hökumət Tərəfdaşlığı Təşkilatının İdarə Heyətinin həmsədrləri, Fransanın Dövlət katibi Jan-Vensen Plasen və Gürcüstanın ədliyyə naziri xanım Tea Tsulukiani Azərbaycanda səfərdə olmuşdur. Səfər çərçivəsində Milli Məclisin deputatları, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyevlə və Beynəlxalq Açıq Hökumət Tərəfdaşlığı Təşkilatının Azərbaycan üzrə koordinatoru Vüsal Hüseynovla, Platforma üzvləri və digər rəsmilərlə görüşlər keçirilmişdir. Görüşlərdə açıq hökumətin təşviqi ilə bağlı fəaliyyətin təkmilləşdirilməsi məqsədilə ölkəmizdə "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Fəaliyyət Planı"ndan və 2016-cı ildə qəbul edilmiş "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"ndan irəli gələn məsələlərin icrası və əldə olunan nəticələr müzakirə edilmişdir. Həmçinin QHT-lərin fəaliyyətini tənzimləyən qanunvericiliyə edilən dəyişikliklər barədə də həmsədrlərə ətraflı məlumat

verilmişdir.

22 may 2017-ci ildə Açıq Hökumət Tərəfdaşlığı Beynəlxalq Təşkilatının Vətəndaş cəmiyyəti iştirakı məsələləri üzrə direktoru Paul Massen Bakıya səfər edərək Platforma üzvləri ilə görüşmüş, Platformanın yaradılmasının və fəaliyyətinin əhəmiyyətli olduğunu bildirmişdir.

2017-ci il ərzində Platforma Azərbaycan üçün yenilənmiş tövsiyələrin hazırlanması ilə bağlı Beynəlxalq Açıq Hökumət Tərəfdaşlığı Təşkilatı ilə müzakirələr aparmış, aparılan müzakirələr nəticəsində Beynəlxalq Açıq Hökumət Tərəfdaşlığı Təşkilatı tərəfindən təqdim olunan yenilənmiş tövsiyələrdə Platformanın 3 təklifi nəzərə alınmışdır.

2017-ci ildə Platformanın Şuranın dəstəyilə hazırladığı www.ogp.org.az saytı istifadəyə verilmişdir. Sayt azərbaycan və ingilis dillərində fəaliyyət göstərir və Milli Fəaliyyət Planları, elektron monitorinq sistemi, e-vətəndaş və digər bölmələrdən ibarətdir.

2017-ci il ərzində Platformanın işçi görüşləri keçirilmiş və üzvlük üçün Platformaya müraciət edən təşkilatlar qeydiyyata alınmışdır.

19 may 2017-ci ildə Sabirabad rayonunda Platforma üzvlərinin, Sabirabad, Saatlı, İmişli RİH-nin məsul şəxslərinin və yerli dövlət qurumlarının, bələdiyyə, QHT və İcma İnkişaf Şuralarının üzvlərinin iştirakı ilə “Yerli səviyyəli Açıq Hökumət Tərəfdaşlığına başlamaq təşəbbüsü” adlı yığıncaq keçirilmişdir. Tədbirdə Yerli səviyyəli Platformanın Anlaşma Memorandumu və Reqlamenti iştirakçılara təqdim olunmuş və bu sənədlər səsə qoyularaq qəbul edilmişdir. Beləliklə, 4 yerli QHT, 6 dövlət qurumu, 5 yerli bələdiyyə və 8 İcma İnkişaf Şurasının iştirakı ilə “Yerli səviyyəli Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması” (bundan sonra - Yerli səviyyəli Platforma) formalaşdırılmışdır.

23 sentyabr 2017-ci ildə Yerli səviyyəli Platformanın Sabirabad rayonunda regional konfransı keçirilmişdir. Konfransda Yerli səviyyəli Platformaya üzv olmaq üçün müraciət edən qurumların müraciətləri səsə qoyularaq qəbul edilmiş və beləliklə, Yerli səviyyəli Platformanın tərkibi 21 QHT, 6 dövlət qurumu, 7 bələdiyyə, 16 İcma İnkişaf Şurası və 2 MMC-ni əhatə edir.

01 mart 2016-cı ildən icrasına başlanan Avropa Şurası və Avropa İttifaqının birgə maliyyələşdirdiyi və Azərbaycan hökumətinin dəstəyi ilə həyata keçirilən “Azərbaycanda Vətəndaş Cəmiyyəti Dialoqu” layihəsinin icrası 2017-ci ildə də davam etdirilmişdir. Layihənin Rəhbər komitəsinin tərkibində Azərbaycan Respublikasının Prezident Administrasiyasının, Ədliyyə Nazirliyinin, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının və qeyri-hökumət təşkilatlarının nümayəndələri təmsil olunur. Layihənin əsas məqsədi qeyri-hökumət təşkilatları haqqında qanunvericiliyinin təkmilləşdirilməsi, icra edici qurumların bacarıqlarının inkişaf etdirilməsi və vətəndaş cəmiyyəti dialoqunun təbliğindən ibarətdir.

18 aprel 2017-ci ildə Bakı şəhərində Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin İctimai-siyasi təşkilatlarla iş üzrə sektorunun müdiri Elman Paşayev, Milli Məclisin deputatları, Milli Məclisin sədr müavini Bahar Muradova və Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev, Avropa Şurası Demokratiya Baş Direktorluğunun Demokratik İdarəetmə üzrə direktoru Klaudiya Luçiani, Avropa Şurası Bakı ofisinin rəhbəri Draqana Filipoviç, Avropa İttifaqının Bakı Nümayəndəliyinin rəhbəri Malena Mard və QHT-lərin iştirakı ilə QHT-lərə dair Azərbaycan Respublikasının qanunvericiliyi və praktikasının Avropa standartlarına uyğunlaşdırılmasına həsr olunmuş konfrans keçirilmişdir. Konfransda qanunvericiliyə dair Avropa Şurasının ekspertləri tərəfindən təkmilləşdirilmiş (ikinci) hesabat müzakirə olunmuşdur.

03 iyul 2017-ci ildə Fransanın Strasburq şəhərində layihənin Rəhbər komitəsinin illik görüşü keçirilmişdir. Rəhbər komitənin görüşü zamanı layihənin bir illik dövrü ərzində əldə edilən nəticələr və layihə çərçivəsində görülücək işlər müzakirə olunmuşdur. Ekspertlər tərəfindən təkmilləşdirilmiş (ikinci) hesabat əsasında təkliflərin hazırlanması ilə bağlı işçi qrupunun yaradılması qərara alınmışdır.

03-05 oktyabr 2017-ci ildə Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin İctimai-siyasi təşkilatlarla iş üzrə sektorunun müdiri Elman Paşayev, Ədliyyə Nazirliyinin Hüquqi şəxslər və vətəndaşlıq vəziyyəti idarəsinin rəisi Rahim Rahimov, Qeyri-hökumət təşkilatları ilə iş şöbəsinin rəisi Səbinə Salmanova, Hüquqi şəxslər və vətəndaşlıq vəziyyəti idarəsinin məsləhətçisi Günay Hacıyeva, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvləri Əliməmməd Nuriyev və Sahib Məmmədov və Şura Katibliyinin Hüquq məsələləri üzrə baş məsləhətçisi Rauf Məcidbəyli və QHT üzvlərindən ibarət Azərbaycan nümayəndə heyətinin Çexiya Respublikasına təcrübə mübadiləsi məqsədilə səfəri təşkil edilmişdir. Səfər çərçivəsində nümayəndə heyətinin Çexiya Respublikasının Qanunvericilik və Maliyyəşmə Komitəsinin, QHT-lər üzrə Dövlət Şurasının, Ədliyyə Nazirliyinin Qanunvericilik departamentinin və digər dövlət qurumlarının məsul şəxsləri ilə görüşləri keçirilmişdir. Görüşlərdə Çexiyada vətəndaş cəmiyyəti institutlarının formalaşmasının təşkilati-hüquqi əsasları, maliyyələşmə mexanizmləri, qeyri-hökumət təşkilatlarının fəaliyyəti və hökumət-QHT əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

17 oktyabr 2017-ci ildə Bakı şəhərində Avropa Şurası Bakı ofisinin rəhbəri Zoltan Herinyes, Avropa Şurası Demokratik İnstitutlar və İdarəetmə Departamentinin Vətəndaş Cəmiyyəti şöbəsinin rəhbəri Mary-Ann Hennessey, Avropa İttifaqının Azərbaycan Respublikasındakı Nümayəndəliyinin Proqram rəhbəri Aleksandra Nerisanu, yerli və beynəlxalq ekspertlərin iştirakı ilə layihənin Rəhbər komitəsinin işçi görüşü keçirilmişdir. Görüşdə Avropa Şurasının ekspertlərindən ibarət işçi qrupu tərəfindən QHT qanunvericiliyinə təklif olunan dəyişikliklərin layihəsi müzakirə olunmuşdur. Müzakirə nəticəsində Ədliyyə Nazirliyi tərəfindən işçi qrupunun tərkibinə ekspertlərin təqdim olunması ilə QHT qanunvericiliyinə dair hazırlanmış təkliflərin təkmilləşdirilməsi qərara alınmışdır.

Fəaliyyət Planının icrasından irəli gələrək 2017-ci ildə Şura tərəfindən həyata keçirilən qrant müsabiqələri üzrə Açıq hökumətin

təşviqi, korrupsiyanın qarşısının alınması, ictimai nəzarət və şəffaflıq məsələləri, istehlakçıların hüquqlarının qorunması və maarifləndirilməsi mövzuları üzrə QHT-lər tərəfindən icra olunan 34 layihənin icrasına Şura tərəfindən dövlət büdcəsi hesabına 211 800 (iki yüz on bir min səkkiz yüz) manat vəsait ayrılmışdır.